AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

**Təsdiq edirəm** ______________________

**“Maliyyə və audit”** kafedrasının müdiri
i.e.d., prof.Əvəz Ələkbərov
*11 fevral 2025-ci il*

# “Dövlətin gəlir və xərclərinin idarə edilməsi” fənni üzrə işçi tədris proqramı

(Sillabus)

## I.Fənn haqqinda məlumat

| | |
|---|---|
| Fənnin kodu: | 00249 |
| Fənnin növü: | Seçmə |
| Tədris ili: | 2024/2025 |
| Fənnin tədris semestri: | Yaz |
| Fakultə | Maliyyə və mühasibat |
| Qrup | DM 24-1, DM24 -2 |
| Kafedra | Maliyyə və audit |
| Tədris yükü | 30/15 |
| Kredit sayi | 4 |

## II.müəllim haqqında məlumat

| | |
|---|---|
| Fənni tədris edən müəllim: | i.e.d.,prof.Əvəz Ələkbərov |
| E-mail ünvani | avaz_alakbarov@unec.edu.az |
| İş telefonu: | 0(12)4925831 |
| **Tələbələr üçün qəbul vaxtlari** | IV,V günlər |

**III. Fənnin təsviri:**

"Dövlətin gəlir və xərclərinin idarə edilməsi" fənni dövlət maliyyəsini əhatə etməklə, əsasən dövlət büdcəsini hədəfləyir. Bu fənn, bir qayda olaraq, iqtisadiyyat üzrə baza biliklərinə malik tələbələr üçün nəzərdə tutulur və nəzəri biliklətlə yanaşı mühüm praktiki əhəmiyyətə malikdir. Fənnin əsas hədəfləri dövlət gəlirlərinin yaranması, onların idarə edilməsi, habelə dövlət xərcləmələrinin səmərəli və ədalətli həyata keçirilməsi istiqamətlərinin müəyyən edilməsidir.

**IV. Fənnin məqsədi və vəzifələri:**

Fənnin tədrisinin **məqsədi** tələbələrdə dövlətin gəlir və xərclərinin necə idarə edilməsi haqqında baza bilik və bacarıqlarının formalaşdırılmasıdır.

Fənnin tədrisi qarşısında duran **vəzifələr** aşağıdakılardır:

- Dövlət büdcəsi haqqında tam və təfsilatlı biliyə mailk olmaq;
- Dövlətin gəlir və xərclərinin idarəedilməsi praktikasını analiz etmək bacarığı;
- Dövlət gəlirlərinin əsas gəlir mənbəyi- vergilər haqqında tam və təfsilatlı bilik və bacarığa mailk olmaq;
- Dövlət xərcləmələrinin səmərəli və ədalətli həyata keçirilməsini izah etmək bacarığını əldə etmək;
- Dövlət borcunun iqtisadi mahiyyətini, habelə onun büdcə kəsiri ilə əlaqəliliyini izah etmək bacarığı.

**V. Öyrənmənin nəticələri:**

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

- Dövlət gəlirlərinin mənşəyi və idarə edilməsi prinsiplərini;
- Dövlət xərclərinin idarə edilməsi prinsiplərini;
- Ayrı-ayrı vergilərin büdcə gəlirlərində rolunun nədən ibarət olmasını;
- Büdcələrarası transferin nə demək olduğunu və necə həyata keçirilməsini;
- Dövlət borcunun mahiyyətini;
- Fiskal siyasət və qaydaların mahiyyətini;
- Büdcə prosesnin mərhələlərini;
- Büdcə prosesində hesabatlılığın önəmliliyni.

**Bacarmalıdırlar:**

- Dövlətin gəlirlərnin necə idarə edilməsini və praktikada onun qiymətləndirilməsini;
- Dövlət xərcləmələrinin səmərələliyinin və ədalətliliyinin qiymətləndirlməsini;
- Fiskal qaydaların tətbiqinin relevantlılığının qiymətləndirilməsni;
- Dövlət borcunun idarəedilməsi səmərəliliyinin qiymətləndirilməsini;

**VI. Fənnin mühazirə mövzuları**

Fənn 15 mühazirə mövzusundan ibarətdir.

1. Dövlətin iqtisadiyyatda rolu və dövlət maliyyəsi
2. Dövlət gəlirləri: Əsas xüsusiyyətləri və növləri
3. Dövlətin əsas gəlir mənbəyi: Vergilər
4. Fiskal siyasət və fiskal qaydalar
5. Vergi inzibatçılığı
6. Fiskal dayanıqlıq
7. Dövlət investisiyalarının idarə edilməsi

8. Dövlət xərcləmələri və onun idarə edilməsi
9. Büdcə və onun icrasına nəzarət
10. Büdcə prosesi və onun idarə edilməsi
11. Büdcələrarası münasibətlər
12. Dövlətin borclanma siyasəti və onun idarə olunması
13. Büdcədənkənar fondlar :Dövlət Neft Fondu
14. Büdcə şəffaflığı və hesabatlılığı
15. Uzunmüddətli büdcə planlaşdırılması və nəticə əsaslı büdcəyə keçid

## VII. Prerekvizitlər

yoxdur

## VIII. Fənnin tədris metodologiyası

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, işgüzar oyunlar, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse yaxud sərbəst işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli ədəbiyyatdan, habelə beynəlxalq və yerli mətbuatdan (internet resurslarından) göturulmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzkirasinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalasdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edecəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) qiraət materialları ilə tanış olmalıdırlar.

## IX. Əsas dərslik və ədəbiyyat


1. Ə.Ə.Ələkbərov "Sosial-iqtisadi inkişafının maliyyə-büdcə parametrlərinin tənzimlənməsi". Bakı-2007. Fəsil I, II, III,VIII
2. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı 1995
3. "Büdcə sistemi haqqında" AR Qanunu, Bakı,02.07.2002 (sonrakı dəyişiklik və əlavələrlə)
4. Cari il üzrə dövlət büdcəsi haqqında AR Qanunu
5. Hesabat ili üzrə dövlət büdcəsinin icrası haqqında AR. Qanunu
6. Növbəti il üzrə dövlət büdcəsi haqqında AR. Qanunu
7. Azərbaycan Respublikasının Vergi Məcəlləsi, Bakı-2019
8. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi, Bakı,1997 (sonrakı dəyişiklik və əlavələrlə)
9. Dövlət rüsumu haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı, 4 dekabr 2001-ci il (sonrakı dəyişiklik və əlavələrlə)
10. Sosial sıgorta haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı,18.02.1997 (sonrakı dəyişiklik və əlavələrlə)
11. Azərbaycan Respublikasının Vahid büdcə təsnifatı, Bakı 2004 (sonrakı dəyişiklik və əlavələrlə)
12. Dövlət büdcəsinin tərtibi və icrası qaydaları haqqında ARNK Qərarı, Bakı, 24.05.2004

Hər bir mövzu üzrə müəllimin mühazirə mətnləri və təqdimatları elektron-kabinetə yerləşdirilir. Hər bir mövzu ilə bağlı müəllim əlavə olaraq xüsusi ədəbiyyat təklif edə bilər.

## X. Fənnin mühazirə mətnləri

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqları, habelə müxtəlif növ məşğələ materialları elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (www.vu.aseu.az) yerləşdirilir.

## XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1 | Dövlətin iqtisadiyyatda rolu və dövlət maliyyəsi | Makroiqtisadiyyat nədir?<br>Dövlətin vəzifə və funksiyaları və onun rolu<br>Dövlət maliyyəsi və onun idarəedilməsi<br>Azərbaycanda büdcə sistemi və icmal büdcə<br>Azərbaycanda dövlət büdcəsinin formalaşması xüsusiyyətləri | **AR. Konstitutsiyası, Bakı 1995** |
| 2 | Dövlət gəlirləri: Əsas xüsusiyyətləri və növləri | Gəlirlər haqqında dünya miqyaslı əsas nəzəriyyələr<br>Millət gəliri, milli gəlir konsepsiyası<br>Dövlət və dövlət gəlirləri<br>Dövlət büdcəsinin gəlirləri<br>Dövlət gəlirlərinin formalaşması prosesi və onun kəskin problemləri<br>. | **Dövlət maliyyəsi**. Bakı, 2013 fə*sil;* ***4*** |
| 3 | Dövlətin əsas gəlir mənbəyi: Vergilər | Dövlətin vergi siyasəti və onun forma və tipləri<br>Vergilərin iqtisadi mahiyyəti və funksiyaları<br>Vergilərin təsnifləşdirici əlamətləri<br>Dövlət büdcəsinin vergili və qeyri-vergili gəlirləri<br>Azərbaycan Respublikasının vergi sistemi və onun strukturunun hüquqi bazası | Məmmədov F.A., Musayev A.F., Sadıqov M.M., Kəlbiyev Y.A., Rzayev Z.H. «Vergilər və vergitutma» Dərslik, Bakı, 2010 səh 20-25 fə*sil;* ***4,8*** |
| 4 | Fiskal siyasət və fiskal qaydalar | Azərbaycanda fiskal siyasətin formalaşması xüsusiyyətləri<br>Dövlət maliyyəsinin idarə edilməsinə giriş<br>Fiskal institutlar və büdcə intizamı<br>Fiskal qaydalar | Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzi " Vergiyə giriş" Dərs vəsaiti. Şamaxı-2014 səh 18-30 |
| 5 | Vergi inzibatçılığı | Vergi inzibatçılığı anlayışı.<br>Vergi inzibatçılığının əsas funksiyaları.<br>Vergi inzibatçılığının komponentləri<br>Vergi inzibatçılığının tətbiqində | **Dövlət maliyyəsi**. Bakı, 2013 fə*sil;* ***5*** |

| | | | |
|---|---|---|---|
| | | Azərbaycan təcrübəsi Azərbaycan respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsi | |
| **6** | Fiskal dayanıqlıq | Dövlət əmlakının idarə edilməsinin hüquqi bazası, Dövlət əmlakının idarə edilməsinin istiqamətləri, Dövlət əmlakının idarə edilməsinin vəzifə və hüquqları, Dövlət əmlakının idarə edilməsi şöbəsinin fəaliyyətinin təşkili, Dövlət əmlakına daxil olan soktorların vəzifələri, Dövlət əmlakının idarə edilməsi və səmərəli istifadəsinə nəzarət şöbəsinin strukturuna daxil olan sektorların vəzifələri | **Dövlət maliyyəsi**. Bakı, 2013 fə*sil; **5*** |
| **7** | Dövlət investisiyalarının idarə edilməsi | Büdcələrarası münasibətlər anlayışı, büdcələrarası münasibətlərin prinsipləri, gəlirlərin müxtəlif səviyyəli büdcələr arasında bölgüsü, Büdcə kəsiri, İcmal büdcə | Ə.Ə.Ələkbərov "Sosial-iqtisadi inkişafının maliyyə-büdcə parametrlərinin tənzimlənməsi". Bakı-2007. Səh 213-250 Büdcə sistemi" Bakı 2003. f*əsil;* 4,5 |
| **8** | Dövlət xərcləmələri və onun idarə edilməsi | Büdcə xərcləmələri nədir və nə cür qruplaşdırılır?Büdcə xərclərinin əsas istiqamətləri hansılardır? Məcburi və ixtiyari xərclər, Kapital xərcləri və cari xərclər, Nominal və real büdcə göstəriciləri, İnflyasiyanı nəzərə almaqla büdcə xərcləmələrinin hesablanması | NovruzovN.A., İbrahimov Ə.İ., "Büdcə sistemi dərslik, Bakı-2012VIII fəsil Bədəlov Ş.Ş.,Məhərrəmov R.B., QurbanovF.Ə., "Büdcəsistemi" dərslik, Bakı-2003 XX fəsil |
| **9** | Büdcə və onun icrasına nəzarət | Büdcə təsnifatı anlayışı, Büdcə təsnifatının təyinatı, mahiyyəti, Azərbaycan Respublikası büdcə təsnifatının tərkibi, Büdcə gəlirlərinin təsnifatı, Büdcə xərclərinin təsnifatı | Novruzov N.A.,İbrahimov Ə.İ., Büdcə sistemi" dərslik, Bakı-2012 IV fəsail Bədəlov Ş.Ş., Məhərrəmov R.B.,Qurbanov F.Ə., "Büdcə sistemi"dərslik, Bakı-2003 IV fəsil |
| **10** | Büdcə prosesi və onun idarə edilməsi | Büdcə prosesinin mahiyyəti, Büdcə prosesinin təşkili prinsipləri, Büdcə prosesinin hüquqi əsasları və onun mərhələləri, Büdcə prosesinin iştirakçıları, Büdcə planlaşdırılmasının və proqnozlaşdırılmasının prinsipləri | **Dövlət maliyyəsi**. Bakı,2013 fə*sil; **11*** |
| **11** | Büdcələrarası münasibətlər | Dövlət borclarının iqtisadi mahiyyəti, məqsəd və vəzifələri, Dövlət borcunun planlaşdırılması, Dövlət borclarının | **Dövlət maliyyəsi**. Bakı,2013 fə*sil;**11*** D.Bağırov, M.Həsənli |

| | | | |
|---|---|---|---|
| | | təsnifatı, Dövlətin krediti və qeyri-kredit borcları, Dövlət borclarının idarə edilməsi | "Maliyyə" Dərs vəsaiti. Bakı- 2011 425 səh. (XVII və XVIII fəsil) |
| **12** | Dövlətin borclanma siyasəti və onun idarə olunması | Fiskal siyasət, Fiskal dayanıqlılığın mahiyyəti, fiskal dayanıqlılığın formaları, Azərbaycan Respublikasının monetar siyasəti, Monetar tənzimləmənin əsas alətləri, | **Dövlət maliyyəsi**. Bakı,2013 fə*sil;* ***11*** |
| **13** | Büdcədənkənar fondlar :Dövlət Neft Fondu | Dövlət Neft fondunun yaradılması məqsədi və iqtisadiyyatda rolu, DNF idarə edilməsi, DNF formalaşması mənbələri, DNF-nin büdcəsi: gəlirləri və xərcləri | **Dövlət maliyyəsi**. Bakı,2013 fə*sil;**11*** D.Bağırov, M.Həsənli "Maliyyə" Dərs vəsaiti. Bakı- 2011 425 səh. (XVII və XVIII fəsil) |
| **14** | Büdcə şəffaflığı və hesabatlılığı | Büdcə şəffaflığı nəyi nəzərdə tutur? BVF-nin şəffaflıq kodu nədir? Açıq Büqdcə İndeksi (ABİ) nədir? 8 əsas büdcə sənədi hansılardır? Azərbaycanın ABİ-də mövqeyi necə dəyişir? | Ə.Ə.Ələkbərov "Sosial-iqtisadi inkişafının maliyyə-büdcə parametrlərinin tənzimlənməsi". Bakı-2007. Səh 213-250 Büdcə sistemi" Bakı 2003. f*əsil;* 4,5 |
| **15** | Uzunmüddətli büdcə planlaşdırılması və nəticə əsaslı büdcəyə keçid | . Uzunmüddətli büdcə planlaması nədir? Nə üçün vacibdir? Nəticə əsaslı büdcəyə keçid necə həyata keçirilir? Uzunmüddətli büdcə planlaşdırılmasının əsas istiqamətləri. Nəticə əsaslı büdcəyə keçiddə uzunmüddətli büdcə planlaşdırılmasının mahiyyəti. | Ə.Ə.Ələkbərov "Sosial-iqtisadi inkişafının maliyyə-büdcə parametrlərinin tənzimlənməsi". Bakı-2007. Səh 213-250 Büdcə sistemi" Bakı 2003. f*əsil;* 4,5 |

## XII. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə cıxarilan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Tələbənin məşğələdəki hər bir cavabı 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal olmaqla) qiymətləndirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə nəzərə alınır:

- 10 bal:5 bal
- 9 bal : 4,5 bal
- 8 bal :4baI
- 7 bal:3,5bal
- 6 bal:3 bal
- 5 bal :2,5 bal
- 4bal:2bal
- 3 bal : 1,5 bal
- 2bal: I bal
- I bal:0,5 bal

Seminar balları əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir.

B = (((bI +b2+b3+.".+bn)/s)*m)/l0

Burada, B - yekun aktivlik bah;

b - seminar dərslərində alınan müxtəlif ballar

s - semestr ərzində verilən cavabların sayı

m - aktivlik bahna aynlan maksimal bal;

l0 - bir seminar dərsində toplanan maksimal baldır.

Tələbə semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 bah toplamış olur. Bu halda nəticə sistemdə ((( 1 0+ 1 0+ 1 0+ 1 0)l 4)* 20)l 70 : 20 olaraq hesaba alınır. Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-ct,7-ci ve s. Cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında tələbəyə cavab verməsi imkanı yaradır.

**XIII. Fənn üzrə kurs işi**

Fənn üzrə kurs işi nəzərdə tutulmayıb.

**XIV. Fənn üzrə ara və aralıq qiymətləndirmə**

Ara qiymətləndirmə hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada yazılı üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir

Yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı tələbəyə 3 sual, aralıq qiymətləndirmə zamanı isə təhsilalanlara 5 sual təqdim olunur.

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirilir. Balların maksimum miqdarı – 100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır . Fənn üzrə tələbənin əldə edə biləcəyi yekun balın strukturu aşağıdakı cədvəldə təqdim edilib:

| **İstiqamət** | **Ballar** | **Faiz** |
|---|---|---|
| Aralıq qiymətləndirmə | 50 | 50% |
| Ara qiymətləndirmə | 30 | 30% |
| Auditoriya qiymətləndirməsi | 20 | 20% |
| **Cəmi:** | 100 | 100% |

Fənn üzrə semestr ərzində (imtahana qədər və imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

| | | |
|---|---|---|
| 51 baldan aşağı olduqda | - "qeyri-kafi" | - F |
| 51-60 bal | - "qənaətbəxş" | - E |
| 61-70 bal | - "kafi" | - D |
| 71-80 bal | - "yaxşı" | - C |
| 81-90 bal | - "çox yaxşı" | - B |
| 91-100 bal | - "əla" | - A |

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi "qeyri-kafi" qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.